www.
dost.
gov.
az



# Funksional yardımçı xidmətlərin göstərilməsi

Bank xidmətləri

Notariat xidmətləri

Xüsusi terminallar vasitəsilə göstərilən xidmətlər

Tərcümə xidmətləri

142
ÇAĞRI MƏRKƏZİ

DOST
DAYANIQLI VƏ OPERATİV SOSİAL TƏMİNAT AGENTLİYİ

## Hansı funksional yardımçı xidmətlər mövcuddur?

- Bank xidmətləri
- Notariat xidmətləri
- Xüsusi terminallar vasitəsilə göstərilən xidmətlər
- Tərcümə xidmətləri

## Bank xidmətləri

- Mərkəzlərdə bankların təklif etdiyi bütün növ xidmətlər haqqında ətraflı məlumat əldə etmək mümkündür. Əlavə olaraq, aşağıdakı xidmətlər göstərilir:
- Bank kartlarının sifarişlərinin verilməsi
- Bütün növ sosial ödəniş (pensiya, müavinət, təqaüd) bank kartlarının vətəndaşlara verilməsi
- Dövlət rüsumlarının və xidmət haqlarının qəbul edilməsi
- İnzibati xətalara dair cərimə-lərin qəbul edilməsi

## Notariat xidmətləri

Hər bir "DOST" mərkəzində notariat xidmətləri təşkil edilmişdir və burada "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bütün növ notariat xidmətləri təklif olunur.

Notariat xidmətləri ödənişli əsaslarla həyata keçirilir və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununun 10-cu

və "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununun 29-cu maddələrinə əsasən notariat hərəkətlərinin aparılmasına görə dövlət rüsumu və göstərilən xidmətə görə haqq nəzərdə tutulmuşdur.

## Xüsusi terminallar vasitəsilə göstərilən xidmətlər

Bütün "DOST" mərkəzlərində xüsusi terminallar quraşdırılmışdır və bu terminallar vasitəsilə aşağıda qeyd olunan xidmətlərdən istifadə etmək mümkündür:

- mobil rabitə və internet xidmətlərinin ödənişi
- kommunal xidmətlərin ödənişi
- kredit və sığorta ödənişlərinin həyata keçirilməsi

## Tərcümə xidmətləri

Hər bir "DOST" mərkəzində bütün növ sənədlərin dövlət dilinə və ya dövlət dilindən digərinə tərcümə edilməsi ilə bağlı xidmətlər göstərilir.

## Bunları bilmək lazımdır:

Qanunvericilikdə nəzərdə tutulmuş dövlət rüsumlarından başqa ödəniş tələb olunmur.

+99412 5255026, +99412 5255027
Bakı şəh., İsmayıl Qutqaşınlı küç., 86
www.dost.gov.az